Məni elə bir əmələ yönəlt ki, onu edəcəyim təqdirdə cənnətə girim. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Allaha heç bir şeyi şərik qoşmadan ibadət et, fərz namazlarını qıl, vacib olan zəkatı ver və Ramazan orucunu tut.”

Əbu Hureyradən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Bir bədəvi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəlib dedi: Məni elə bir əmələ yönəlt ki, onu edəcəyim təqdirdə cənnətə girim. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Allaha heç bir şeyi şərik qoşmadan ibadət et, fərz namazlarını qıl, vacib olan zəkatı ver və Ramazan orucunu tut.” Kişi dedi: “Nəfsim əlində olana and olsun ki, bunun üzərinə heç bir şey artırmayacam. O, dönüb getdikdə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: “Kimi Cənnət əhlindən olan bir insana baxmaq sevindirirsə, bu kişiyə baxsın”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Səhradan bir kişi Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldi ki, onu Cənnətə aparacaq bir işə yönəltsin. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ona cavab verdi ki, cənnətə daxil olmaq və cəhənnəmdən xilas olmaq, İslamın əsaslarını yerinə yetirməkdən asılıdır. Bu əsaslar isə: Allaha ibadət etmək və Ona heç bir şeyi şərik qoşmamaqdan, Allahın hər gecə və gündüz qullarına vacib etdiyi beş namazı qılmaqdan, Allahın sənə vacib etdiyi malın zəkatını layiq olan kəsə ödəməkdən, Ramazan ayının orucunu vaxtında tutmaqdan ibarətdir. Həmin kişi dedi ki, nəfsim əlində olan Allaha and olsun ki, sənin buyurduğun fərz əməllərin üzərinə heç bir itaət əlavə etməyəcəyəm və onlardan heç bir şey əskiltməyəcəyəm. O, dönüb getdikdə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: Kimi cənnət əhlindən olan bir kəsə baxmaq sevindirirsə, bu (səhrada yaşayan) bədəviyə baxsın.

http://sunnah.global/hadeeth/az/show/3689